Ulduz Rəfili - 100

# "Mehmanxana sahibəsi" yeni quruluşda





**Azərbaycan Gənc Tamaşaçılar Teatrının səhnəsində Əməkdar incəsənət xadimi, professor, ilk milli peşəkar qadın teatr rejissoru Ulduz Əliyeva Rəfilinin 100 illik yubileyi münasibətilə məşhur italyan dramaturqu Karlo Haldoninin "Mehmanxana sahibəsi" tamaşası yenidən canlandırılıb.**

Xatırladaq ki, bu tamaşa ilk dəfə 1952-ci ildə Akademik Milli Dram Teatrının səhnəsində nümayiş etdirilib. Əsəri Sabit Rəhman tərcümə edib. Tamaşanın rejissoru görkəmli səhnə xadimi, SSRİ Xalq artisti Mehdi Məmmədov olub. Vaxtilə Ulduz xanım özünün diplom işi olan bu tamaşada baş rolu – Mirondalinanı (mehmanxana sahibəsi) oynayıb. A.A.Tuqanov, Mehdi Məmmədov və Rza Təhmasib kimi dahi sənətkarlardan dərs almış Ulduz xanım fəaliyyəti dövründə teatrda 50-dən artıq əsərə səhnə həyatı verib. 1972-75-ci illərdə teatrın baş rejissoru olub. Sonra isə pedaqoji fəaliyyətə başlayıb. O, uzun illər Musiqi Akademiyasının vokal və opera hazırlığı kafedrasının professoru olub.

Ulduz Rəfilinin 100 illiyində Gənc Tamaşaçılar Teatrı səhnəsində bu obraza Əməkdar artist Leyli Vəliyeva yeni nəfəs verərək sələfinin ruhunu şad edib. Quruluşçu rejissor isə Xalq artisti, professor Cənnət Səlimovadır.

Yeni quruluşda tamaşanın təqdimatı bir növ böyük sənətkarın ehtiramla anıldığı xatirə gecəsi olub.

**F.HÜQUQQIZI**

Xalq qəzeti .-2022.- 27 dekabr.- S.14.